


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 173 (24.310)

*21 sentyabr 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev BP şirkətinin İdarə Heyətinin sədrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də BP şirkətinin İdarə Heyətinin sədri Helqe Landı qəbul edib.

Görüşdə BP şirkətinin hasilat və əməliyyatlar üzrə icraçı vitse-prezidenti Qordon Birrel və 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanmasında iştirak edən şirkətin sabiq baş icraçı direktoru Lord Con Filip Braun iştirak ediblər.

Söhbət zamanı 20 sentyabr – "Əsrin müqaviləsi"nin imzalandığı günün önəmi qeyd edildi, bunun ölkəmizin inkişaf tarixində çox mühüm bir səhifə olduğu vurğulandı. Prezident İlham Əliyev "Əsrin müqaviləsi"nin imzalandığı və Azərbaycanda neft işçilərinin peşə bayramı kimi qeyd edilən Neftçilər Günündə bu görüşdə BP şirkətinin rəhbərliyinin, həmçinin tarixi müqavilənin birbaşa iştirakçısı və uzun illər BP şirkətinin rəhbəri olan Lord Con Filip Braunun iştirakını yüksək qiymətləndirərək, Azərbaycan ilə şirkət arasında həyata keçirilən uzunmüddətli sıx, səmərəli və strateji əməkdaşlığın tarixinə toxundu. Dövlətimizin başçısı bunu investorlar və investisiya qoyulan ölkə arasında olan əməkdaşlığın yaxşı nümunəsi kimi dəyərləndirdi və bu əməkdaşlığın qarşılıqlı inam, etimad və fayda əsaslandığını məmnunluqla qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın keçdiyi çətin və tarixi sınaq dövründə ölkədə iqtisadi inkişaf yolunun əsasının qoyulmasında 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi"nin xüsusi rolunu vurğuladı.

Ölkəmizin sosial-iqtisadi nailiyyətlərində neft-qaz sektorunun xüsusi önəminə toxunan dövlətimizin başçısı Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilmiş və nəzərdə tutulan regional və qlobal miqyaslı layihələrdən danışdı.

BP şirkətinin sabiq baş icraçı direktoru Lord Con Filip Braun "Əsrin müqaviləsi"nin imzalandığı həmin çətin dövrdə məhz Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsi sayəsində investisiya qoyuluşu üçün mövcud risklərin dəf edildiyini və beləliklə, bunun nəticəsində bu mühüm müqavilənin imzalandığını böyük məmnunluqla xatırladı. Şirkətin nümayəndələri ölkəmizin mürəkkəb dövründə "Əsrin müqaviləsi"nin Ümummilli Liderin qətiyyətli və məharətli siyasəti nəticəsində ərsəyə gəldiyini vurğuladılar, Azərbaycanın enerji ehtiyatlarının inkişafında bu müqavilənin rolundan bəhs etdilər.

Onlar qeyd etdilər ki, müasir dövrdə Azərbaycanın neft-qaz yataqlarının işlənilməsinə Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrlərdə yaradılan infrastruktur böyük töhfə verib və irimiqyaslı layihələrin qısa müddətdə həyata keçirilməsini şərtləndirib. Vurğulandı ki, ölkəmizdə icra olunan layihələrdə tətbiq edilən mühəndislik, ətraf mühitin qorunması və digər standartlar BP-nin fəaliyyət göstərdiyi dünyanın digər bölgələrindəki standartlar səviyyəsindədir və ya onlardan da üstündür. Bu da ölkəmizin neft-qaz sahəsində zəngin insan kapitalının mövcudluğu hesabına mümkün olub.

Azərbaycanın dünyanın ən qədim neft-qaz sənayesinə malik olduğunu deyən qonaqlar bu sənayenin ən müasir səviyyəyə çatdırılmasında ölkəmizin beynəlxalq enerji şirkətləri ilə əməkdaşlığına və strateji baxışına toxundular.

Söhbət zamanı BP şirkətinin Azərbaycanda neft-qaz və enerji sahələrində gələcək layihələrdə də maraqlı olduğu vurğulandı, yeni sərmayə qoyuluşu imkanları müzakirə edildi. Qlobal enerji keçidi nəzərə alınaraq, BP-nin Azərbaycanda olan tərəfdaşlarla, o cümlədən SOCAR ilə əməkdaşlıqda, yeni bərpa olunan enerji layihələrinin həyata keçirilməsində maraqlı və qətiyyətli olduğu bir daha diqqətə çatdırıldı.

Görüşdə əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Sonda Lord Con Filip Braun Ulu Öndərlə olan xatirə fotosunu dövlətimizin başçısına təqdim etdi.

## Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib



Sentyabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.

**Prezident İlham Əliyevin xalqa müraciəti**

– Əziz həmvətənlər.

Bildiyiniz kimi, dünən səhər erməni silahlı birləşmələrinin törətdikləri terror aktı nəticəsində 6 Azərbaycan vətəndaşı, onlardan ikisi mülki şəxs mina terrorunun qurbanı olmuşdur. Birinci dəfə deyil ki, bizə qarşı Ermənistan terror aktı törədir. İkinci Qarabağ müharibəsi başa çatandan sonra bu günə qədər 300-dən çox Azərbaycan vətəndaşı mina terrorunun qurbanı olmuşdur, ya da ki ağır yaralanmışdır.

Dünənki terror aktı bu sıradan olan hadisə idi. Laçın sərhəd-buraxılış məntəqəsi qurulmayana qədər İkinci Qarabağ müharibəsindən sonra Ermənistandan Azərbaycanın Qarabağ bölgəsinə qanunsuz olaraq minalar gətirilmiş və müxtəlif yerlərdə basdırılmışdır. Bir müddət bundan əvvəl Azərbaycan Silahlı Qüvvələri tərəfindən aşkarlanmış minalar Rusiya sülhməramlı kontingentinin və Rusiya-Türkiyə Monitorinq Mərkəzinin nümayəndələrinə göstərilmiş və onlardan ciddi tədbir görülməsi tələb edilmişdir. Bu minalar 2021-ci ildə Ermənistanda istehsal olunmuş minalardır. Yəni bu, bir daha onu göstərir ki, İkinci Qarabağ müharibəsindən sonra məqsədyönlü şəkildə Azərbaycana qarşı terror aktlarını həyata keçirmək üçün bu minalar gətirilmişdir.

Azərbaycan dərhal lazımi addımlar ataraq düşməni layiqincə cəzalandırmışdır. Lokal xarakterli antiterror tədbirlərinə başlanıldı və qarşıda duran bütün vəzifələr cəmi bir gün ərzində yerinə yetirildi. Terrorçular cəzalandırıldı və bir daha Ermənistana göstərildi ki, onların istənilən təxribatına layiqli cavab veriləcəkdir.

Dünən, təxminən, saat 13[00] radələrində antiterror tədbirlərinin başlanması və uğurla başa çatması nəticəsində Azərbaycan öz suverenliyini bərpa etmişdir.

Qeyd etməliyəm ki, antiterror tədbirləri nəticəsində bizim hərbçilərimiz böyük qəhrəmanlıq, şücaət, peşəkarlıq göstərmişlər. Ağır relyef şəraitində, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq, bizim hərbçilərimiz bir daha qeyd etdiyim kimi, qəhrəmanlıq, peşəkarlıq göstərmişlər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etmişlər. Ermənistan dövlətinin Azərbaycan ərazisində qanunsuz yerləşdirilmiş və Ermənistan dövlətinin öhdəliyinə baxmayaraq, bu günə qədər çıxarılmamış ordunun böyük hissəsi tamamilə məhv edilmişdir. Hərbi texnika məhv edilmişdir və sıradan çıxarılmışdır.

Əməliyyat başlamazdan əvvəl mənim tərəfimdən bütün hərbi birləşmələrimizə bir daha ciddi tapşırıq verilmişdir ki, aparılan antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində yaşayan erməni əhalisi zərbə altına düşməməlidir və mülki əhali qorunmalıdır. Biz həm yüksək dəqiqliyə malik silahlardan istifadə edərək buna nail olduq, eyni zamanda Silahlı Qüvvələrimizin peşəkarlığı nəticəsində mülki vətəndaşlar tamamilə özlərini sığortalanmış vəziyyətdə hiss etmişlər. Eyni zamanda göstəriş verilmişdir ki, mülki infrastruktura da heç bir zərbə dəyməməlidir, ancaq hərbi infrastruktur sıradan çıxarılmalıdır. Bir daha demək istəyirəm ki, ordumuzun, bütün Silahlı Qüvvələrimizin peşəkarlığı, texniki imkanları bizə bu vəzifəni şərəflə yerinə yetirməyə şərait yaratmışdır və bir daha Azərbaycan əsgəri, zabiti həm yüksək peşəkarlıq, həm də yüksək mənəvi keyfiyyətlər göstərmişdir.

Bir daha qeyd etmək istəyirəm ki, aparılmış qısamüddətli lokal xarakterli antiterror tədbirləri nəticəsində düşmənin silah və texnikalarının böyük hissəsi sıradan çıxarılmışdır. Onu da bildirməliyəm ki, Azərbaycan ərazisində qanunsuz olaraq Ermənistan ordusuna məxsus yüzdən çox tank və zirehli nəqliyyat vasitələri, zirehli texnika yerləşdirilmişdir. Radioelektron mübarizə vasitələri yerləşdirilmişdir. İki yüzdən çox top və artilleriya qurğuları, hava hücumuna qarşı ən müasir qurğular yerləşdirilmişdir. 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata zidd olaraq Ermənistan üç il ərzində öz silahlı qüvvələrini, canlı qüvvəsini və texnikasını bizim ərazimizdən çıxarmamışdır. Halbuki dəfələrlə həm Ermənistan rəhbərliyi ilə təmaslar əsnasında, eyni zamanda beynəlxalq tədbirlərdə yüksək kürsülərdən mən dəfələrlə bu məsələyə qayıdaraq Azərbaycan dövlətinin haqlı narazılığını ifadə etmişdim. 10 noyabr üçtərəfli Bəyanatı, əslində, Ermənistan dövlətinin kapitulyasiya aktı idi və bu kapitulyasiya aktına görə Ermənistan Azərbaycan ərazilərindən bütün silahlı qüvvələrini çıxarmalı idi. Ancaq bundan imtina edirdi.

Əfsuslar olsun ki, antiterror tədbirləri zamanı şəhidlərimiz olub. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Yaralı əsgər, zabitlərimiz olub. Allah onlara şəfa versin. Onlar Vətən yolunda, haqq-ədalət yolunda, Azərbaycanın suverenliyi yolunda öz canlarını fəda etmişlər. Onların əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaqdır.

Əməliyyatın uğurlu gedişatı, təbii ki, Ermənistan dövlətini və onun himayəsi altında fəaliyyət göstərən qanunsuz xunta rejimini ciddi təşvişə salmışdır. Əməliyyatdan bir qədər sonra bizə vasitəçilər tərəfindən müxtəlif qeyri-müəyyən siqnallar gəlməyə başlamışdır və bizim Silahlı Qüvvələrimizin uğurlu irəliləyişi nəticəsində bu siqnallar daha intensiv xarakter almışdır. Bu gün səhər beynəlxalq tərəfdaşlardan bizə verilən məlumat ondan ibarət idi ki, qanunsuz silahlı birləşmələr, Ermənistan ordusunun bu birləşmələri artıq bizim şərtlərimizi qəbul etməyə hazırdırlar. Bizim şərtlərimizi isə mən dünən mənə zəng etmiş Amerika Birləşmiş Ştatlarının Dövlət katibinə çatdırmışdım. Məndən soruşuldu ki, antiterror tədbirlərini dayandırmaq üçün nə lazımdır? Mən dedim ki, Ermənistan ordusunun bizim ərazimizdə qanunsuz məskunlaşmış birləşmələri silahları yerə qoymalı, tərk-silah olunmalı, bizim ərazimizdən tamamilə çıxarılmalıdır və eyni zamanda bütün silahlar və texnikalar təhvil verməlidirlər. Ancaq o təqdirdə Azərbaycan antiterror tədbirlərini dayandıra bilər. Əks-təqdirdə sona qədər gedəcəyik və düşmən bizim gücümüzü də, qətiyyətimizi də yaxşı bilir.

Bu gün səhər saatlarında artıq bizə bildirildi ki, bizim şərtlərimiz qəbul edilib. Üstəgəl, bir neçə ay ərzində bizim nümayəndələrimizlə görüşdən imtina edən Qarabağda yaşayan erməni icmasının nümayəndələri bizimlə dediyimiz yerdə – Yevlax şəhərində görüşməyə hazırdırlar. Mənim cavabım belə oldu ki, Azərbaycan hər zaman olduğu kimi, öz sözünə sadiqdir. Bunu dostlarımız da bilir, düşmənlərimiz də bilir. Bizim sözümüz imzamız qədər dəyərlidir və bizim şərtlərimiz qəbul olunarsa, təbii ki, tədbirlərimiz, hərbi tədbirlərimiz dayandırılacaq və bu gün saat 13-də atəşkəs elan edildi. Əfsuslar olsun ki, qarşı tərəf atəşkəsə tam əməl etməyib. Atəşkəs elan olunandan sonra da bizim mövqelərimiz atəş altına düşmüşdür. Buna baxmayaraq, prinsip etibarilə bizim şərtlərimiz tam qəbul olundu və onu da bildirməliyəm, indi saat yeddiyə beş dəqiqə işləyir.

Artıq qanunsuz erməni silahlı birləşmələrinin mövqelərdən çıxarılma prosesi başlamışdır. O cümlədən onlar bizim şərtimizi

*Ardı 2-ci səhifədə*

qəbul edərək silahların da təhvil verilməsinə başlamışlar. Sual olunur. Bu vəziyyətə gətirib çıxarmaq kimə xeyir gətirdi? Axı İkinci Qarabağ müharibəsindən dərhal sonra biz haqlı narahatlığımızı ifadə edərək dəfələrlə Ermənistan rəhbərliyinə, onların xaricdəki havadarlarına və digər tərəflərə müraciət edərək deyirdik ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisində qalması qanunsuzdur və buna son qoyulmalıdır. Biz deyirdik ki, qanunsuz xunta rejimi öz əski parçasından artıq olmayan dırnaqarası bayraqlarını bükub cibinə qoyub bizim torpağımızdan çıxmalıdır. Bu bizim suveren hüququmuzdur. Qarabağ Azərbaycan ərazisidir və bunu bütün dünya tanıyır, o cümlədən Ermənistan rəhbərliyi artıq bunu başa düşüb. Əgər vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyirdisə, indi "Qarabağ Azərbaycandır" deyir və nəinki deyir, hətta bizim ərazimizin ölçülərini də dilə gətirməyi unutmur. Düzdür, bunu öz xoşu ilə etməyib, bunu "dəmir yumruq" hesabına etməyə məcbur olub. Amma fakt göz qabağındadır. Ermənistan Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyandan sonra Qarabağda 30 il at oynadan kriminal rejimin hansı statusu ola bilər?! Hansı dövlət atributları ola bilər?! Hansı seçkilər ola bilər?! Bütün İkinci Qarabağ müharibəsi başa çatandan sonra əldə edilmiş üçtərəfli şifahi razılaşmalara rəğmən bu ayın 9-da Qarabağda saxta "seçkilər" keçirildi, saxta "prezident" seçildi, dırnaqarası prezident. Həmin o şəxs dərhal bəyan etdi ki, onlar statusun dalınca qaçacaqlar. Yəqin ki, mənim sözlərim onların yadından çıxıb. İkinci Qarabağ müharibəsi başa çatanda, Ermənistan ağ bayraq qaldıranda, diz çökəndə, kapitulyasiya aktına imza atanda mən demişdim ki, status cəhənnəmə getdi. Müharibədən bir müddət sonra biz status haqqında cəfəng ifadələri eşitmirdik. Amma görünür ki, bu qorxu onların canından yavaş-yavaş çıxdıqca yenidən revanşist qüvvələr baş qaldırır. Ona görə bütün bu amillər bir daha onu göstərir ki, qanunsuz kriminal xunta rejimi azğınlaşıb, harınlaşıb və qudurub. Unudub ki, onlar Azərbaycan ərazisində yaşayırlar. Ona görə bizim bütün addımlarımız legitimdir, hüquqidir, ədalətlidir və bütün addımlara görə biz həm məsuliyyət daşıyırıq, həm qürur hissi keçiririk. Yenə də deyirəm, antiterror tədbirləri yüksək peşəkarlıqla, dəqiqliklə elə aparıldı ki, mülki əhali zərbə altına düşmədi, mülki infrastruktura zərər vurulmadı. Ancaq düşmən mövqeləri, onların silahları, texnikaları məhv edildi.

İndi isə əminəm ki, bölgəmizdə yeni vəziyyətin yaranması labüddür. Çünki kriminal xunta rejimi təslim olandan sonra bu gərginlik mənbəyi, bu zəhər yuvası artıq tarixdə qalır və Qarabağda yaşayan erməni əhalisi də nəhayət rahat nəfəs ala bilər. Bunu mən demişəm və bir daha demək istəyirəm, Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır. Sadəcə olaraq, erməni millətçiləri, müharibə cinayətkarları, Ermənistanın və Qarabağın dırnaqarası rəhbərləri o insanları girov götürmüşdü, onların beyinlərini zəhərləmişdi. Azərbaycan haqqında, Azərbaycan xalqı haqqında olmazın yalanlarını uydurub onların beyinlərinə doldurmuşdur, onların beyinlərini zəhərləmişdir. Mən əminəm ki, Qarabağda yaşayan erməni əhalisi tezliklə yaxşılığa doğru dönüşü görəcək. Çünki bizim niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır. Bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur, ədavətimiz də yoxdur.

Bütün haqsızlıqlara baxmayaraq, bütün kriminal Ermənistan rejimi tərəfindən törədilmiş cinayətlərə baxmayaraq, biz erməni xalqını bu cinayətlərdə heç vaxt günahlandırmamışıq. Xocalı soyqırımında, şəhərlərimizin, kəndlərimizin dağıdılmasında, qəbirlərin qazılmasında biz erməni xalqını günahlandırmamışıq. Biz kriminal rejimin ünsürlərini, başda duranlarını ittiham etmişik və biz onları məsuliyyətə cəlb edirik və edəcəyik. Bəziləri artıq öz layiqli cəzasını alıblar, bəziləri də alacaqlar.

Yevlax şəhərində mənim nümayəndəmlə Qarabağ icmasının nümayəndələrinin görüşü əsnasında biz öz baxışlarımızı, gələcək birgə yaşayış baxışlarımızı onlara çatdıracağıq. Onların bütün hüquqları təmin ediləcək – təhsil hüquqları, mədəniyyət hüquqları, din hüquqları, munisipal seçki hüquqları. Yəni, Azərbaycan azad cəmiyyətdir, Azərbaycan çoxmillətli, çoxkonfessiyalı dövlətdir. Bu bizim böyük sərvətimizdir. Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi bunu görür. Bunu izah etməyə ehtiyac yoxdur. Bu bizim həyat tərzimizdir. Heç vaxt Azərbaycanda dini, milli zəmində ayrı-seçkilik olmayıb və olmayacaq, İkinci Qarabağ müharibəsi bir daha onu göstərdi. Bütün millətlərin nümayəndələri, bütün etnik qrupların, bütün konfessiyaların nümayəndələri bir yumruq kimi birləşdi – Azərbaycan uğrunda, ləyaqət uğrunda, Vətən uğrunda! Ona görə, bax bu gözəl ab-hava, bu, təbii bir məkandır və biz Qarabağda yaşayan erməni əhalisini buna dəvət edirik. Biz müxtəlif sosial proqramlar icra etməyə hazırıq. Biz bütün Qarabağı və Şərqi Zəngəzuru yenidən qururuq, görün, nə qədər böyük işlər görürük, cəmi iki il ərzində. O bölgədə, bəlkə də, 30 il ərzində heç 1 faiz də iş görülməyib – elektrik stansiyaları, körpülər, tunellər, su anbarları, yaşayış binaları, kəndlər, şəhərlər qurulur. Cəmi iki il ərzində. Heç bir yardım almadan, özümüz. İkinci Qarabağ müharibəsi başa çatanda mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik və çeviririk, hər gələn insan onu görür. Eyni şəraiti biz Xankəndidə, Ağdərədə, Xocavənddə, kəndlərdə yaradacağıq, Əsgəranda yaradacağıq. Bu bizim əlimizdədir. Ona görə bizim təklifimiz budur və bu gün dönüş nöqtəsi idi. Xunta, qansoran zəlilər artıq tamamilə ifşa olundu və təslim oldu. Onlar ağ bayraq qaldırdılar!

Bu gün Qarabağda yaşayan sadə insanlar üçün yeni tarixi bir şans yaradılıb. O şansı əldən verməsinlər. Biz buna hazırıq və Azərbaycan xalqı bilir, əminəm, erməni xalqı da bilir ki, mənim sözüm sözdür. Biz bunu təklif edirik və ümid edirəm ki, bizim təklifimiz qəbul olunacaq. Çünki bu, məntiqə, tarixi ədalətə, beynəlxalq hüquqa, gələcək inkişafa əsaslanan və gələcək inkişafa hesablanan təklifdir.

Ermənistan bu dövr ərzində – dünən, bu gün deyə bilərəm ki, gözlənilmədən siyasi şəriştə göstərib və biz bunu qiymətləndiririk. Bunu önəmli amil kimi görürük və hesab edirəm ki, dünən və bu gün baş vermiş hadisələr, eyni zamanda Azərbaycanla Ermənistan arasında gedən sülh prosesinə də müsbət təsir göstərəcək.

Mən ümid etmək istəyirəm ki, bizim atdığımız addımlar və antiterror tədbirlərinin nəticələri imkan verəcək ki, nəhayət, sülh danışıqları üçün olan, Ermənistan tərəfindən qoyulan, verilən, təklif olunan, necə adlandırırsınız adlandırın, maneə aradan qalxa bilər. Bu, Cənubi Qafqazda yeni reallıq yaradacaq, uzunmüddətli sülh yaradacaq. Biz əmin olmalıyıq ki, qarşı tərəf revanşist fikirlərlə yaşamır və onlar da əmin olmalıdırlar ki, bizim onların torpağında gözümüz yoxdur. Biz onların ərazi bütövlüyünü tanıyırıq və bunu bəyan etmişik, bütün ölkələrin ərazi bütövlüyünü tanıyırıq. Biz, sadəcə olaraq, tələb edirdik həm onlardan, həm onların arxasında duran və onlar üçün dar məqamda onların yanında olmayan, uzaqda, Avropada yerləşən dırnaqarası erməni cəfakeşləri bilsinlər – nə qədər uzaq dursalar bizim bölgəmizdən, o qədər də bölgə rahat nəfəs alacaq və biz bunu təklif edirik. Biz təklif edirik ki, Cənubi Qafqaz ölkələrinin gələcəyi sülhə, əmin-amanlığa, inkişafa söykənsin. Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən və erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər əl çəksinlər bizdən. Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın. Bu bölgə əsrlərboyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq! Biz bunu tələb edirik və bir daha demək istəyirəm, Ermənistan dövlətinin dünən və bu gün sərgilədiyi mövqe ümidlər verir. Ümidlər verir ki, o gün uzaqda deyil – Azərbaycan və Ermənistan öz aralarında olan məsələləri tənzimləyəcək, sülh müqaviləsi imzalayacaq və Cənubi Qafqaz ölkələri üçtərəfli formatda gələcək əməkdaşlıq haqqında işləməyə başlayacaqlar. Ancaq bununla bərabər, onu da bildirməliyəm ki, bizə xor baxanlar, torpağımıza göz dikənlər, uğurumuzu həzm edə bilməyənlər heç vaxt, heç vaxt unutmasınlar ki, "dəmir yumruq" yerindədir və hər zaman yerində olacaq! Heç kim bizimlə diktat və ultimatum dilində danışa bilməz! Bunu heç kim unutmasın! Onu da unutmasın ki, Qarabağ Azərbaycandır!

**AZƏRTAC**

## Polis serjantı Ələsgər Əsgərovun cənazəsi Naxçıvana gətirilib







Sentyabrın 19-da qanunsuz erməni silahlı birləşmələri tərəfindən törədilən təxribat-diversiya/terror aktı nəticəsində həlak olmuş Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin polis serjantı Əsgərov Ələsgər Zakir oğlunun cənazəsi Naxçıvana gətirilib.

Sentyabrın 20-də Naxçıvan Beynəlxalq Hava Limanında polis serjantı Ələsgər Əsgərovun cənazəsinin qarşılanma mərasimi olub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, dövlət və hökumət nümayəndələri, Türkiyənin Naxçıvandakı Baş konsulu, Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları və polis serjantı Ələsgər Əsgərovun ailə üzvləri tədbirdə iştirak ediblər.

Polis serjantı Ələsgər Əsgərovun üçrəngli bayrağımıza bükülmüş cənazəsi polis əməkdaşlarının müşayiəti ilə mərasim yerinə gətirilib.

Səlahiyyətli nümayəndə polis serjantı Ələsgər Əsgərovun ailə üzvləri ilə görüşərək başsağlığı verib.

**"Şərq qapısı"**

## Şəhid adı müqəddəsdir

Şəhidlik elə bir zirvədir ki, o zirvədən baxanda yalnız Vətən görünür. Ona görə də Vətən yolunda canından keçən ordumuzun hər bir əsgəri, zabiti qürur mənbəyimizdir.

2020-ci il sentyabrın 27-də başlanan II Qarabağ müharibəsi ordumuzun böyük Zəfəri ilə nəticələndi, 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanatla qarşı tərəf məğlubiyyətini etiraf edərək üzərinə bir sıra öhdəliklər götürdü. Ancaq Ermənistan tərəfi ötən müddətdə bəyanatın müddəalarını dəfələrlə pozmuş, öhdəliklərinə əməl etməmiş, regionda təhlükəsizliyi təmin edəcək sülh müqaviləsindən boyun qaçırmışdır. Son bir neçə ayda Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələri tərəfindən Azərbaycan Ordusunun mövqeləri müxtəlif çaplı silahlardan intensiv şəkildə atəşə tutulur, ərazilərimizin minalanması davam etdirilir, Azərbaycanın Qarabağ bölgəsindəki Ermənistan silahlı qüvvələrinin birləşmələrinin mövcudluğunun davam etdirilməsi gərginliyin artmasına səbəb olmuşdur.

Sentyabrın 19-da Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Qarabağ bölgəsindəki birləşmələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunda terror məqsədilə əvvəlcədən quraşdırılmış minanın partlaması nəticəsində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə məxsus nəqliyyat vasitəsi sıradan çıxmış və mülki şəxslər həlak olmuş, həmin gün Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularını daşıyan nəqliyyat vasitəsinin də Ermənistan silahlı qüvvələrinin kəşfiyyat-diversiya qrupları tərəfindən quraşdırılmış minaya düşməsi nəticəsində hərbi qulluqçularımız həlak olmuş və yaralanmışdır.

Ali Baş Komandan cənab İlham Əliyevin qeyd etdiyi kimi: ***"Beynəlxalq hüquq işləməyəndə, imza o qədər də əhəmiyyətə malik olmayanda sülhün təminatı yalnız gücdür".***

*Ardı 3-cü səhifədə*

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumatında qeyd olunur ki, üçtərəfli Bəyanatın müddəalarının təmin olunması, Qarabağ iqtisadi rayonunda törədilən genişmiqyaslı təxribatların qarşısının alınması, Ermənistan silahlı qüvvələrinin birləşmələrinin tərk-silah edilərək ərazilərimizdən çıxarılması, onların hərbi infrastrukturunun zərərsizləşdirilməsi, işğaldan azad edilmiş ərazilərə qayıdan dinc əhali, habelə bərpa-quruculuq işlərinə cəlb olunmuş mülki işçilər və hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması və Azərbaycan Respublikasının Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanılıb. Tədbirlər çərçivəsində Ermənistan silahlı qüvvələrinin birləşmələrinin ön xətt və dərinlikdə olan mövqeləri və uzunmüddətli atəş nöqtələri, eləcə də döyüş vasitələri və hərbi təyinatlı obyektləri yüksək dəqiqlikli silahların tətbiqi ilə sıradan çıxarılıb, mülki əhali və infrastruktur obyektləri isə hədəfə alınmayıb.





Heç bir antiterror əməliyyatı itkisiz olmur, bizim də şəhidlərimiz, yaralılarımız oldu. Sentyabrın 19-da qanunsuz erməni silahlı birləşmələri tərəfindən törədilən təxribat-diversiya/terror aktı nəticəsində həlak olmuş Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin polis serjantı Əsgərov Ələsgər Zakir oğlunun cənazəsi Naxçıvana gətirilib, dövlət rəsmilərinin iştirakı ilə, izdihamla qarşılanıb. Polis serjantı Ələsgər Əsgərov Naxçıvan şəhəri Əliabad qəsəbəsindəki qəbiristanlıqda dəfn olunub. Dəfn mərasimində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları, dövlət və hökumət, ictimaiyyət nümayəndələri iştirak ediblər. Dəfn mərasimi fəxri qarovul və yaylım atəşi ilə müşayiət edilib.

Sonda şəhidin atasına üçrəngli Azərbaycan bayrağı təqdim edilib.

Şəhidlər vətənpərvərlik, cəsurluq, qəhrəmanlıq nümunəsidirlər. Bu ölümsüz qəhrəmanlar daim qəlbimizdə yaşayacaqlar. Allah şəhidlərimizə rəhmət eləsin!.

Qeyd edək ki, sentyabrın 20-də Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciəti nəzərə alınaraq 2023-cü il sentyabrın 20-də saat $13^{00}$-da bir sıra şərtlər altında lokal xarakterli antiterror tədbirlərinin dayandırılması barədə razılıq əldə olunub. Qarabağdakı Ermənistan silahlı qüvvələrinin birləşmələri ağ bayraq qaldırıb və təslim olub. Beləliklə, ordumuz Qarabağda yenə Tarixi Zəfər çaldı. Qələbə bizimdir!

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

---

*21 sentyabr Beynəlxalq Sülh Günüdür*

## Ermənistanın Azərbaycana qarşı növbəti hərbi təxribatları bölgəmizdə sülh və sabitliyə qarşı böyük zərbədir

*Birləşmiş Millətlər Təşkilatının 21 sentyabr 1981-ci il tarixli Qərarına əsasən hər il bütün dünyada "Beynəlxalq Sülh Günü" kimi qeyd olunur. Birləşmiş Millətlər Təşkilatı tərəfindən belə bir tarixi günün təsis edilməsində əsas məqsəd bütün ölkələri və xalqları həmin gün hərbi əməliyyatları dayandırmağa və ya sülh problemləri ilə bağlı təhsil və ictimai maarifləndirmə kampaniyaları keçirməyə dəvət etməkdir. İnsan hüquqları, sülh və dözümlülük mədəniyyətinin təbliği, əhalinin hüquqi cəhətdən maarifləndirilməsi, onların hüquqi düşüncə və mədəniyyətinin günün tələbləri səviyyəsində inkişaf etdirilməsi demokratik-hüquqi dövlətin və vətəndaş cəmiyyətinin qurulması prosesinə təkan verən ən mühüm amillərdəndir.*

Yaşadığımız mürəkkəb sosial-siyasi hadisələrlə müşayiət olunan dövrdə qarşımızda duran ən mühüm məqsəd istər ailədə, istərsə də cəmiyyətdə, müxtəlif etnik qruplar, dövlətlər, millətlər arasında ayrı-seçkiliyin bütün formalarını aradan qaldırmaqdır.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıtdıqdan sonra bəşəriyyətə qarşı törədilmiş dəhşətli cinayət olan Xocalı soyqırımının əsl mahiyyəti açılmış və 1994-cü ilin fevralında Milli Məclisdə Xocalı soyqırımına hüquqi-siyasi qiymət verilmişdir.

Dahi şəxsiyyət Heydər Əliyev böyük müdriklik və uzaqgörənliklə qan tökülməsinin qarşısını almış, 1994-cü ilin mayında atəşkəs haqqında müqaviləni imzalamaqla müharibənin müvəqqəti də olsa, dayandırılmasına nail olmuşdur. Bu isə təbii ki, insan tələfatının qarşısının alınması ilə bərabər, regionda sabitliyin yaranmasına, ölkəmizin iqtisadi və hərbi gücünün artmasına səbəb olmuşdur.

Ulu Öndər Heydər Əliyev müasir dünyanın ziddiyyətli və ədalətsiz reallıqlarına dərindən bələd olan bir siyasi xadim kimi, ilk növbədə, beynəlxalq müstəvidə təbliğatın düzgün qurulmasına və beləliklə də, dünya dövlətlərinin diqqətini bu işğal faktının əsl səbəblərinə yönəltməyə nail olmuşdur. Ulu Öndər həmin dövrdə beynəlxalq ictimaiyyətin diqqətini Ermənistanın Azərbaycan ərazilərinə hərbi təcavüzünə yönəltmiş, münaqişənin sülh yolu ilə həll olunması istiqamətində ardıcıl tədbirlər görmüşdür. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi üçün 822, 853, 874 və 884 saylı qətnamələr qəbul etmişdir. Bundan başqa, ATƏT-in 1994-cü il Budapeşt, 1996-cı il Lissabon və 1999-cu il İstanbul sammitlərində münaqişənin dinc və siyasi yollarla həlli istiqamətində də bir sıra mühüm təkliflər irəli sürülmüşdür. Xüsusilə 1996-cı ildə ATƏT-in Lissabon Zirvə Görüşü zamanı Ümummilli Liderin siyasi uzaqgörənliyi və müdrikliyi sayəsində Azərbaycanın mövqeyi dünyanın haqq və ədalət hissini itirməyən 53 dövləti tərəfindən qəbul və müdafiə olunmuş, xalqımıza qarşı törədilmiş faciələr, soyqırım aktları tanınmışdır.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının preambulasında ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərmək Azərbaycan dövlətinin ən ülvi niyyəti kimi təsbit olunmuşdur. Ümummilli Lider Heydər Əliyevin sülhün və əmin-amanlığın əldə olunması istiqamətindəki əvəzsiz xidmətləri bütün dünya xalqları tərəfindən yüksək qiymətləndirilmiş, dahi şəxsiyyət 1999-cu il noyabrın 1-də Beynəlxalq Atatürk Sülh Mükafatına layiq görülmüşdür.

Əsası görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən qoyulmuş sülhsevər siyasət bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən məqsədyönlü davam etdirilir. Ölkə başçısının məqsədyönlü inkişaf strategiyası nəticəsində Azərbaycan bu gün öz iqtisadi qüdrətini daim artıran, eyni zamanda mütərəqqi beynəlxalq normalara uyğun insan hüquq və azadlıqları sistemini formalaşdıran dövlətə çevrilmişdir. ***"Azərbaycan sülhün, təhlükəsizliyin qarantıdır"***, – deyən dövlət başçısının apardığı gərgin xarici siyasət nəticəsində ölkəmizin beynəlxalq aləmdə nüfuzu artmış, dünya dövlətləri və nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanın haqq işini dəstəkləyərək ölkəmizin ərazi bütövlüyünü tanımış, bu səbəbdən multikulturalizm və tolerantlıq mövzularında beynəlxalq konfranslar məhz ölkəmizdə keçirilmişdir. Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq əsrlərboyu milli-mədəni rəngarənglik mühitinin formalaşdırıldığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olmuş, bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq, Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu dövlət siyasəti nəticəsində Naxçıvan blokada şəraitində inkişafın əsl nümunəsini ortaya qoyaraq Azərbaycanın sürətlə tərəqqi edən təhlükəsiz diyarına çevrilmişdir. Sülh və əmin-amanlıq şəraitində muxtar respublikanın müdafiə, ərzaq və enerji təhlükəsizliyi təmin olunmuş, ictimai-siyasi sabitlik qorunub saxlanılmışdır. Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması isə Azərbaycanın bu qədim diyarında zəngin mədəni-mənəvi irsə verilən yüksək qiymətin təzahürüdür.

Ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə aparılan uğurlu hüquq siyasəti nəticəsində ölkəmizdə insan hüquqlarının davamlı inkişafı və təmin olunması istiqamətində zəruri tədbirlər həyata keçirilir, müvafiq qanunvericilik aktları qəbul olunur və ya müasir dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilir. Təbii ki, görülən işlər və aparılan islahatlar, idarəetmənin təkmilləşməsi insanların öz hüquqlarını həyata keçirməsi üçün böyük imkanlar yaradır. Bu səbəbdən də Azərbaycana beynəlxalq aləmin marağı daha da artır və ölkəmiz bir sıra beynəlxalq tədbirlərə uğurla ev sahibliyi edir.

Dövlət başçısının 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda "Əhalinin hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişaf etdirilməsi, ayrı-seçkiliyin yolverilməzliyi, sülh və dözümlülük mədəniyyətinin, xalqımızın milli-mənəvi dəyərlərinin təbliği məqsədilə maarifləndirmə tədbirlərinin keçirilməsi" aidiyyəti qurumlar üçün bir vəzifə kimi müəyyən olunmuş və ötən dövr ərzində bu istiqamətdə bir sıra zəruri tədbirlər təşkil edilmişdir.

Cənubi Qafqazda ən qüdrətli və güclü orduya malik olan ölkəmiz daim beynəlxalq hüquq normalarına sadiqliyini nümayiş etdirərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, qan tökülmədən, beynəlxalq hüququn hamılıqla tanınmış ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipləri əsasında qeyd-şərtsiz həll olunması sahəsində zəruri addımlar atmışdır.

Bütün bunlara baxmayaraq, işğalçı Ermənistan cəzasızlıq şəraitində daha da irəli gedərək Azərbaycanı yeni torpaqlar uğrunda yeni müharibə ilə hədələmiş, dövlət sərhədi və təmas xətti boyu hərbi təxribatlara əl atmışdır. 27 sentyabr 2020-ci il tarixdən başlayaraq Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyalarını və onlara əlavə edilmiş protokolları, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq ölkəmizin sərhəd rayonlarına, şəhər və kəndlərə, yaşayış məntəqələrinə və sosial obyektlərə müxtəlif növ iriçaplı artilleriya qurğuları və digər silahlardan atəş açmış, nəticədə, mülki əhali arasında tələfat olmuş, təhsil və səhiyyə müəssisələri, sosial, mədəni, tarixi, dini obyektlər ağır artilleriya qurğularından və qadağan olunmuş silahlardan istifadə edilməklə dağıdılmışdır.

Ölkəmiz erməni təxribatının qarşısını almaq məqsədilə Vətən müharibəsinə başlamış və rəşadətli ordumuz 30 il işğal altında olan torpaqlarımızı 44 gün ərzində azad edərək tarixi qələbə qazanmış, ərazi bütövlüyümüz bərpa edilmişdir. İkinci Qarabağ müharibəsində tamamilə məğlubiyyətə uğrayan Ermənistan 10 noyabr 2020-ci il tarixdə kapitulyasiya haqqında Bəyanatı imzalamağa məcbur olmuş, bununla da regionda real sülhün bərqərar edilməsi üçün fundamental əsaslar yaranmışdır. Bu əsaslar Azərbaycan xalqının, Silahlı Qüvvələrimizin və Ali Baş Komandan cənab İlham Əliyevin regionda yaratdığı yeni sülh və əməkdaşlıq erasını şərtləndirən amil olmuşdur. ***"...nümayiş etdirdiyimiz və elan etdiyimiz addımlar Qafqazda sülhə töhfə vermək üçün iradəmizin bariz nümunəsidir... Eyni zamanda biz Qafqazda sülh gündəliyini təşviq edirik. Hesab edirəm ki, bütün istiqamətlərdə təşəbbüs bizim əlimizdədir. Həmin təşəbbüs sülhə xidmət edir və etməlidir".***

Üçtərəfli Bəyanatın 9-cu bəndində qeyd olunduğu kimi, regiondakı bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir, bölgədə yerləşən dövlətlərin vətəndaşlarının, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə yaradılacaq dəhliz vasitəsilə Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsi bərpa olunur.

Ermənistan 2020-ci il noyabrın 10-da imzalanmış Bəyanatla üzərinə müəyyən öhdəliklər götürməsinə baxmayaraq, həmin öhdəlikləri yerinə yetirməkdən müxtəlif bəhanələrlə yayınmış, iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində atılan addımlara, Ermənistanla sülh müqaviləsi imzalamağa hazır olmağımıza dair ən yüksək səviyyədə edilən bəyanatlara məhəl qoymamışdır. Bunlara baxmayaraq, Azərbaycan qlobal öhdəliklərə, humanizm dəyərlərinə sadiqliyini daim nümayiş etdirir, sülh və təhlükəsizliyin gerçəkləşdirilməsi istiqamətində çevik, konstruktiv siyasət həyata keçirir. Bütün bu səylər isə dünyada yüksək dəyərləndirilir, beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənir.

Dövlət başçısı cənab İlham Əliyevin siyasi uzaqgörənliyi, prinsipial məqamlarda qətiyyətli mövqeyi, diplomatik bacarığı sayəsində ölkəmiz daha uca zirvələrə, daha böyük qələbələrə doğru irəliləyir. Belə ki, 10 noyabr Bəyanatının 6-cı bəndinə uyğun olaraq Azərbaycan Laçın şəhərindən yan keçən yolun tikintisini nəzərdə tutulan 3 il ərzində deyil, daha qısa bir vaxtda tamamladığı üçün 2022-ci il avqustun 26-da Laçın şəhəri, eləcə də Zabux və Sus kəndləri Azərbaycan Ordusu tərəfindən tam nəzarətə götürülmüşdür.

Təəssüflə qeyd etmək lazımdır ki, Ermənistan silahlı qüvvələrinin bölmələri ötən dövrdə olduğu kimi, yenə də beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normalarını, fundamental insan hüquq və azadlıqlarını, Azərbaycan, Ermənistan və Rusiya liderləri arasında 2020-ci il 10 noyabr tarixdə imzalanmış üçtərəfli Bəyanatın şərtlərini mütəmadi olaraq qəsdən və kobud şəkildə pozaraq Azərbaycan-Ermənistan dövlət sərhədinin Şuşa, Zəngilan, Qazax, Naxçıvan, Daşkəsən, Kəlbəcər, Xocavənd, Xocalı, Laçın və digər istiqamətlərində genişmiqyaslı təxribat törətmişdir.

Bundan əlavə, Ermənistan tərəfindən işğaldan azad olunmuş torpaqlarımızda basdırılmış minalar hərbi qulluqçularımızın və mülki şəxslərin həyatına son qoymaqda davam edir. Belə ki, sentyabrın 19-da Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi əməkdaşlarının olduğu nəqliyyat vasitəsi Əhmədbəyli-Füzuli-Şuşa yolunun Xocavənd rayonunun ərazisindən keçən hissəsində qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən basdırılmış tank əleyhinə minaya düşərək partlamışdır. Həmçinin terror hadisəsinin baş verdiyi yer istiqamətində hərəkət edən Daxili İşlər Nazirliyinin əməkdaşlarının olduğu nəqliyyat vasitəsi Xocavəndin Tağaverd kəndi ərazisində yeni inşa olunan tunel yolunda qanunsuz erməni silahlı birləşmələrinin təxribat-diversiya qrupu tərəfindən yerləşdirilmiş minaya düşərək partlamışdır. Baş vermiş partlayışlar nəticəsində iki mülki şəxs və Daxili İşlər Nazirliyinin dörd əməkdaşı həlak olmuşdur.

Ümumiyyətlə, Ermənistanın hərbi cinayətləri əhalinin həyat və sağlamlığı üçün ciddi təhlükədir və bu cinayətlər beynəlxalq təşkilatları, dünya dövlətlərini, milli insan hüquqları təsisatlarını düşündürməli, narahat etməli, işğalçı Ermənistana qarşı hüquqi sanksiyaların tətbiq edilməsi ilə bağlı konkret tədbirlər görülməlidir.

*Buna görə də beynəlxalq təşkilatlar və nüfuzlu dünya dövlətləri ədalətli sülhün əldə olunması səylərinə zərbə vuran Ermənistan Respublikasından müharibə cinayətlərinə, mülki əhalinin hüquq və azadlıqlarının kobud şəkildə pozulmasına səbəb olan cinayətkar əməllərinə son qoymağı tələb etməli, bu ölkəyə münasibətdə beynəlxalq hüquqi məsuliyyət müəyyən edən təcili tədbirlər həyata keçirməlidir.*

**Günay RZAYEVA**
***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman)***



# Qarabağda aparılan antiterror əməliyyatları Azərbaycanın konstitusional hüququdur

*Dünya tarixi göstərir ki, özünün düşmənçilik instinktləri ilə insanlığa düşmən kəsilib, insanlara qarşı terrorçuluq törədən hər kim varsa sonunda öz haqlı cəzasını çəkmiş, əməllərinə görə cavab vermişdir. Keçmişi yalan, yaltaqlıq, hiylə və terror üzərində qurulmuş erməni etnosu da son iki yüz ilə yaxın br müddətdə təkcə Cənubi Qafqazın deyil, bütün dünyanın başına bəla olmaqla gəldiyi nöqtədə ən böyük cəzanı da çəkməyə məhkumdur. Bu mənada, 2020-ci il 10 noyabr Bəyannaməsindən sonra Azərbaycanla reinteqrasiyanı rədd edib türk çörəyini yeməkdən imtina edən ermənilərin bu dəfə yediyi son kötək sonuncu erməninin də yadından çıxmayacaq. 19 sentyabrda Xankəndidə Azərbaycanın qanuni hakimiyyətinin bərpa olunması, buranın hər cür separatçı tör-töküntüdən təmizlənməsi üçün başladılan antiterror əməliyyatları dövlətimizin konstitusional hüququ olmaqla bütün dünyaya da verilən açıq mesajdır.*

Dünyada yeni bir siyasi arxitektura və strateji mübarizələr xəritəsi formalaşdırmış 2001-ci il 11 sentyabr hadisələrindən sonrakı 22 illik dövr Yaxın Şərq, Əfqanıstan, Suriya, Ukrayna müharibələri ilə yadda qalarkən dövlətlərin suverenliyi üçün təhlükə yaradan terrorist ünsürlərə qarşı antiterror əməliyyatları da zaman-zaman gündəmə gəlmişdir. Qeyri-qanuni silahlı dəstələr şəklində təşkilatlanan, heç kimin tanımadığı kukla dövlətlər yaratmaqla özlərini maraqlı tərəflərin alətinə çevirən belə terror qruplarının gec-tez yox olacağını da yaxın tarix xatırlatmaqdadır. Belə ki, müxtəlif dövrlərdə bir çox ölkələrdə müxtəlif adlarla ortaya çıxıb qanlı əməllər törətmiş erməni terror təşkilatları çürük ideologiya naminə dinc insanları öldürməkdən çəkinmir, işgəncə verməklə özlərinin heyvani hisslərindən zövq alırdılar. Erməni terrorunun qurbanları arasında təkcə türklər və azərbaycanlılar deyil, digər millətlərdən olan siyasətçilər, diplomatlar, jurnalistlər, iş adamları, hətta səyahətçi turistlər də olmuşlar. "Böyük Ermənistan" xülyası ilə yaşayıb onunla da gorbagor olan bu qəbilənin insanları bir çox hallarda özləri də nə istədiklərini bilmədən harada gəldi nümayişə çıxmaq, səfirliklərə hücum etmək, bayraq yandırmaq, hətta idman yarışlarında belə iğtişaş salmaqla sanki dünyanın onlarsız yaşaya bilmədiyini zənn etməklə də, əslində, terroru da davam etdirməkdədirlər. Dünyanın hər yerinə səpələnmiş, Amerikanın Kaliforniya, İranın İsfahan, Fransanın Marsel, Rusiyanın Rostov bölgələrində və Livanda kompakt halda yaşayan erməni sürüsü buralarda qorxudan quyruq buladığı halda, Azərbaycanın Qarabağ bölgəsində əliqanlı əməllər törədib keçmişdən mənimsədikləri terror instinktini XXI əsrə daşımaqla onsuz da qarışıq dünyada yeni müharibə ocaqları üçün qara barıt olmaqda davam edirlər. XX əsrin əvvəllərindən başlayaraq müxtəlif dövrlərdə azərbaycanlılara qarşı soyqırımı və deportasiya törətmiş, 1988-ci ildən bəri bir milyon soydaşımızı yerindən didərgin etmiş, bədnam separatçılıq əməlləri ilə 20 mindən artıq insanı qətl etmiş ermənilər II Qarabağ savaşındakı rüsvayçı məğlubiyyətdən sonra da bu həyasız əməllərinə davam etməklə sanki yenə də dünyanın sərsəm siyasətçilərindən əvvəlki dəstək, pul və silah ala biləcəklərini düşünməkdə, daha qanlı terror əməlləri törətməkdədirlər. Halbuki 2020-ci ilin 10 noyabrında boğazlarındakı ipi kəsməklə yeni nəfəs hədiyyə olunmuş Qarabağ ermənilərinə məğlub Ermənistandan dərs çıxarmaq, bundan sonrakı dövrdə tərk-silah olunmaqla normal həyata dönmək, cinayətkarları cəzalandırmaqla yeni doğulacaq ermənilərin bir daha terrorist olmaması üçün əla bir şans verilmişdi. Ancaq hələ ana bətnində terrorist südü ilə zəhərlənmiş bu tayfanın doğulmadan cinayətkar olduğunu ötən üç ilə yaxın müddətdə bütün dünya bildi və "erməni kimliyi" Qarabağdakı terrorist qruplaşma ilə bir daha sübut olundu.

Ermənilər son otuz ildə Azərbaycana olmazın zərərlərini vurublar. Səthi hesablamalara görə 100 milyard dollardan artıq həcmdə hesablanan bu maddi zərərlər ermənilərin Şuşanın azad olunmasından sonra da törədilən əməllər və yerinə yetirilməyən vədlərlə daha da artmaqdadır. Sentyabrın 19-da, günortadan başlayaraq müzəffər Azərbaycan Ordusunun Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan ərazilərdə yuvalanmış qeyri-qanuni erməni silahlılarına qarşı başlatdığı antiterror əməliyyatları da uzanıb gedən bu əməllərə birdəfəlik son qoyulması və bütün bölgədə normal yaşayışa qayıtmaq məqsədi daşıyır. Və bu əməliyyat da gec-tez olmalıydı. Keçmişə qayıtsaq, hələ Laçın və Kəlbəcəri tərk edərkən ermənilərin evlərini yandırması, elektrik stansiyalarını söküb, meşədəki ağacları belə kəsib özləri ilə aparmasından tutmuş Qarabağın qızıl yataqlarını talan etməsinədək hər cür talançılıq əməllərinin şahidi olmuşduq. Bunlar da yetməmiş kimi 10 noyabr Bəyannaməsindən sonra iki ölkə arasında münasibətlərin yaxşılaşdırılması, kommunikasiyaların açılması və sülh müqaviləsinin imzalanması kimi öhdəliklərin yerinə yetirilməməsi, əvəzində dağlıq yollarla Qarabağa silah daşıyan ermənilərin yeni istehsal edilmiş minalarla ərazilərimizdə gizli ölüm nöqtələri yaratması da intensivləşirdi. Təkcə 44 günlük müharibədən sonrakı dövrdə işğaldan azad edilmiş ərazilərdə 315 nəfər insanın minaya düşərək həlak olması və ya xəsarət alması bu əməllərin dəhşət dərəcəsindən xəbər verir. Otuz il ərzində Azərbaycanın 20 faiz torpağını işğal altında saxlamaqla başından böyük ov iştahasını göstərən ermənilər ərazilərimizi minalamaqla doğma torpaqlarımıza qayıdacaq insanların da hüquqlarını vəhşicəsinə pozurdular. Beləliklə, həmin 20 faiz torpaqların hələ də boz ərazi kimi qalmış, təxminən, dörddə birində yuvalanmış erməni dığaları bu gün növbəti dəfə "Dəmir yumruğ"u yeməkdədirlər.

Ermənilər Vardanyan kimi başıyekə olduğu qədər həm də tülkü qorxağıdırlar. Üzbəüz döyüşdə həmişə uduzmuş ermənilər mina terroru kimi siyasi terrorda da bir nömrədirlər. Azərbaycan ərazisi Qarabağda qanunsuz qalmış 10 mindən çox silahlı terrorist, yüzdən çox tank və zirehli texnika, zenit raket kompleksi, yaylım atəş kompleksləri də daxil olmaqla, iki yüzdən çox artilleriya qurğusuna sahib olan erməni terrorçuları, hətta hərbi radioelektron mübarizə vasitələri ilə də mülki təyyarələrin uçuşuna qarşı təhlükə yaradırdılar. Ancaq Sorosun ona hədiyyə etdiyi hakimiyyətini qorumaq hayında olan Ermənistan baş nazirinin işləri bir az çətinə düşən kimi himayədarlarının birindən küsüb, digərinin qucağına sığınması "su boğazına çıxan meymunun balasının da üstünə çıxması" məsələini bir daha xatırladır. Və bu meymun vərdişləridir ki, ermənilər eyni saatda quyruğu ilə Makronun üzünü tumarlayıb, Amerika ilə oyun oynayıb, rusların da çənəsini cırmaqlamağı yaxşı bacarırlar. Ancaq 30 ilin acı günlərindən nəticə çıxarmayan bu bədbəxt tayfa hələ də bilmir ki, onların bu hərəkətlərinin böyük dövlətlərin və ya regional güclərin gündəmində bir qramlıq da çəkisi yoxdur. Dünyanın işi-gücü var və Qarabağda pulları batmış erməni lobbisindən başqa heç kim onlarla artıq maraqlanmır. Erməni erməniliyindən dəyən isə Azərbaycana dəyir. Son günlər ard-arda baş verən mina partlayışları, dinc insanların və polislərimizin həlak olmaları artıq bütün Azərbaycanın səbrini daşırdı və güclü ordumuz çoxdan gözlənilən düyməni sıxdı. Bunu hamı gözləyirdi. Çünki bu və ya digər səbəbdən içimizə sızmış və bəlkə də, gələcəkdə üzü gəlib bizim ölkəmizdə yaşayacaq erməniləri elə təmizləmək lazımdır ki, bir daha qalxıb santexnika işlərindən başqa heç bir iş görə bilməsinlər. Çünki köhnə adamların da dediyi kimi erməninin əlindən gələn tək faydalı iş odur.

Azərbaycanın konstitusion hüquqlarından istifadə edərək öz halalca torpaqlarında lokal xarakterli antiterror tədbirləri aparması, necə deyərlər, revanşistlərə yüngülvari qulaqburma verməsi isə deyəsən, ömrüboyu insanlıq, humanizm nədir bilməyən erməni murdarlarını dinə-imana gəlməyə, təslimat ərizəsi yazmağa vadar edib. Hə, necə deyərlər "Adın nədir, Daşdəmir, yumşalsan, yumşalı!" Bərkbərk qucaqladığınız dədə-baba mirasınınz silah-sursatı atıb ağ bayraq qaldırmasanız, hələ burnunuz çox ovulacaq! Qoy separatizmə, terrorizmə bir dünya görk olacaq təmizləmə əməliyyatı sizə və kölgəsində yatıb yalmandığınız havadarlarınıza da ömürlük dərs olsun! "Dəmir yumruq" dərsi!

**Əli CABBAROV**
***Naxçıvan Dövlət Universitetinin dosenti***

## "Ümummilli Lider Heydər Əliyev və sülh siyasəti" mövzusunda tədbir keçirilib



Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) və Naxçıvan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Beynəlxalq Sülh Günü münasibətilə tədbir keçirilib.

Tədbirdə Müvəkkil aparatının şöbə müdiri Vahidə Bayramova və Naxçıvan Şəhər İcra Hakimiyyəti şöbə müdirinin müavini Orxan Məhərrəmov ölkəmizdə insan hüquqları və insani dəyərlərin kontekstində dayanan sülh mədəniyyətini təbliğ etmək sahəsində Ulu Öndər Heydər Əliyevin xidmətləri, eləcə də bu istiqamətdə həyata keçirilmiş tədbirlər və görülmüş işlər barədə danışıblar.

Sonra Müvəkkil aparatının şöbə müdiri Asiman Abbasovun "Sülh insan hüquqlarının qorunmasının və inkişafının zəruri şərtidir", Naxçıvan Şəhər İcra Hakimiyyəti şöbə müdirinin müavini Orxan Məhərrəmovun "Azərbaycan multikulturalizmi: dünyada sülh və dözümlülük nümunəsi kimi", Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə müdiri Faiq Səfərovun "Sülh və insanlıq əleyhinə cinayətlər" mövzusunda çıxışları dinlənilib.

Sonda videoçarx nümayiş etdirilib, mövzu ətrafında fikir mübadiləsi aparılıb.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

## "Əsrin müqaviləsi" Tarixi Zəfər yolumuzun başlanğıcıdır

Babək Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illiyi münasibətilə "Əsrin müqaviləsi Tarixi Zəfərimizə gedən yolun başlanğıcıdır" mövzusunda tədbir keçirilmişdir.

Tədbirdə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir.

Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov çıxışında vurğulamışdır ki, Azərbaycanın bugünkü inkişafının təməl daşı kimi dəyərləndirilən "Əsrin müqaviləsi"nin imzalanmasından 29 il ötür. 1994-cü il sentyabr ayının 20-də Bakıda dünyanın 11 transmilli şirkəti ilə imzalanan "Əsrin müqaviləsi" regionda, eləcə də postsovet məkanında qarşılıqlı etimadın və geniş əməkdaşlığın təməlini qoydu. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkədə vətəndaş qarşıdurmasına son qoyulması, ictimai-siyasi sabitliyin bərqərar olması, qonşu ölkələrlə kəskin münasibətlərin qismən yumşaldılması, xarici sərmayələrə ciddi dövlət təminatının verilməsi qərbin ən böyük neft şirkətlərinin diqqətini yenidən Xəzər dənizinə yönəltdi və haqqında bəhs olunan transmilli müqavilənin hazırlanaraq imzalanmasına əlverişli şərait yaratdı.

Qeyd olunmuşdur ki, Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu, Prezident cənab İlham Əliyevin uğurla həyata keçirdiyi neft strategiyası qarşıdakı illərdə Azərbaycana daha böyük uğurlar bəxş edəcək. Azərbaycanın enerji diplomatiyasının uğurlarını bu gün Tarixi Zəfərimizin



yaratdığı reallıqları ardıcıl şəkildə həyata keçirməyimizdə görür və bundan böyük qürur hissi keçiririk.

Tədbirdə Yeni Azərbaycan Partiyası Babək Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı İsa Məmmədov, psixologiya üzrə fəlsəfə doktoru Çapay Quliyev, tarix üzrə fəlsəfə doktoru Qadir Əkbərov çıxış etmişlər. Çıxışlarda Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətindən danışılmış, Azərbaycanın inkişafı naminə xidmətlərindən söhbət açılmışdır.

Sonda Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı film nümayiş olunmuşdur.

**Xəbərlər şöbəsi**

## Tədbir olub

Naxçıvan Muxtar Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev icbari tibbi sığortanın banisidir" mövzusunda tədbir keçirilib.

Tədbiri universitetin Elm və innovasiyalar üzrə prorektoru Elsevər Əsədov açaraq icbari tibbi sığortanın əhəmiyyətini qeyd edib. Sonra İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Elnur İbrahimov



çıxış edərək bildirib ki, tibb sahəsi üzrə qanunvericilik bazasının formalaşması, tibb ocaqlarının müasir tibbi cihaz və avadanlıqları ilə təchiz olunması, tibb müəssisələrində beynəlxalq standartlara əsaslanan müalicə və müayinə metodlarının tətbiqi, icbari tibbi sığortanın Azərbaycan Respublikasının bütün ərazisində uğurla həyata keçirilməsi məhz xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün Ulu Öndərin uzaqgörən siyasəti Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir.

Naxçıvan Muxtar Respublikasında da hazırda icbari tibbi sığorta mexanizmlərinin formalaşdırılması, tibb sahəsi üzrə kadr potensialının artırılması, tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, əhalinin tibbi xidmətlərə bərabər şərtlərlə əlçatanlığının artırılması və əhalinin sağlamlığının qorunması istiqamətində məqsədyönlü işlər həyata keçirilməkdədir.

Sonda iştirakçıların sualları cavablandırılıb, Ulu Öndər haqqında filmin nümayişi olub.

***Naxçıvan Muxtar Respublikası İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin mətbuat xidməti***

***İtmişdir***

Abbasov Elmar Ələsgər oğlunun adına olan 07.09.2010-cu ildə verilmiş AA-004439 nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Bakı şəhəri, Sabunçu qəsəbəsi stansiyayanı küçəsi ev 35-də yaşayan Məmmədova Çəməngül Bayraməli qızının Babək rayon Məzrə kəndində mülkiyyətində olan həyətyanı torpaq sahəsinin AA-005337 seriyalı planı və ölçüsü, 203013003086 nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

***

Babək rayon, Nehrəm qəsəbə sakini Həsənov Sadıq Abbasqulu oğlunun adına olan JN-1696A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
www.serqqapisi.gov.az
Nömrəyə məsul: Muxtar Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 571